# Ad

*hekayə*

**Abuzər kişi arzu eləmişdi ki, oğlu olsa uşağa atasının adını qoysun. Ancaq əvvəlcə beş qızı dünyaya gəldi. Öz-özünə dedi ki, Allah verən paydı, neyləmək olar, qismət beləymiş. Uca Allah onun istəyini də ürəyində qoymadı. İllər sonra altıncı uşaq oğlan oldu. Qohum-qonşu Abuzər kişiyə gözaydınlığı verdi. O da kəndi yığıb şadyanalıq elədi. Gözaydınlığına kənd sovetinin katibi Xudaverdi müəllim də gəlmişdi. O. yeyib-içəndən sonra səbəbkarın atasını yanına çağırıb dedi ki, Abuzər kişi, o gün olsun toyuna gələk. Axırda onu da əlavə etdi ki, sabah sənədləri gətir, uşağa "metirka" yazdıraq. Bu işi çox gecikdirmək olmaz, bizdən də hər ay doğulanlar barədə hesabat istəyirlər...**

Abuzər kişi səhəri gün lazım olan sənədləri arvadı Mədinədən alıb getdi Kənd Sovetinə. İçəri girib salam verdi. Xudaverdi müəllim kiminləsə ucadan danışırdı. Buna görə də Xudaverdi müəllim kişinin salamını başını yelləməklə aldı və ona yer göstərdi.

Abuzər kişi Xudaverdi müəllimin dediklərindən belə başa düşdü ki, o, rayonun vəzifəli adamlarından biri ilə danışır.

Telefon söhbəti bitdi. Xudaverdi müəllim üzünü Abuzər kişiyə tutub dedi ki, görürsən də, ay qohum, biz nələr çəkirik. Kolxozda suçu olmaq bundan min dəfə yaxşıdı. Səhər stolun arxasına keçən telefonu əlinə götürüb zəng edir bura, kefimizi, dərdimizi soruşmadan başlayır tapşırıq verməyə. Elə bilirlər biz də bir kişiyik. Daha başa düşmürlər ki, indi heç kolxozçu da adamı saymır, səniynən qanun dilində danışır...

Xudaverdi müəllim hiss etdi ki, deyəsən, Abuzər kişi onun bu sözlərinə o qədər də inanmır. Çünki o, indi söylədiklərini yanına arayış, sənəd almağa gələnlərin hamısına dönə-dönə təkrarlayırdı.

- Hə, Abuzər kişi, gəlmisən? Yaxşı eləmisən. De görüm, balaca kişinin adını nə yazdırmaq istəyirsən?

Abuzər kişi sənədləri onun qarşısına qoyub sakitcə dedi:

- Rəhmətlik kişinin adını...

Xudaverdi müəllim bir qədər duruxdu. Nə düşündüsə:

- Ay başınıza dönüm, bilmirəm bu nə xəstəlikdi düşüb kəndin canına. Allah rəhmət eləsin Sədyar babaya. Əsil kişi olub, kasıb-kusuba da əl tutub. Ancaq Abuzər, sən özgəsi deyilsən, indi bizdən tələb olunur ki, övladlarımıza müasir adlardan qoyaq. Axı, uşaqlar böyüyəndə pis ada görə xəcalət çəkirlər. Buna görə də yaxşı-yaxşı fikirləş. Uşağa elə ad yazdır ki, həm sadə olsun, həm də müasir, - dedi və durub pəncərəni açdı.

Abuzər kişi onun dediyini başa düşürdü, ancaq dediyindən də dönmək istəmirdi. Birdən ağlına gəldi ki, yəqin Xudaverdi müəllim şirinlik istəyir. Buna görə dedi:

- Ay Xudaverdi, mən sənə bir qoyun da boyun oluram, sən mən deyəni elə. Rəhmətlik kişinin adı itib-batmasın.

"Qoyun" sözünü eşidən Xudaverdi müəllim bir qədər mülayimləşdi və "valı" dəyişdi:

- A kişi, niyə mənə inanmırsan? Ağsaqqal adamsan, canım-ciyərimsən. Bax, gəl açıq danışaq, sənin atan kim olub? Sovet hökumətinin düşməni, qaçaq. Şura hökumətinə güllə atıb. Bunu bu ətrafda hamı bilir. Sən indi təzəcə dünyaya gəlmiş oğluna onun adını qoyanda deyəcəklər ki, hə, bu nəsil yetmiş ildə dəyişməyib. Sonra da başlayacaqlar əvvəlcə məndən cürbəcür "danos" yazmağa. Bir də o uşağın günahı nədi ki, indidən onun gələcəyinin qabağına daş fırladırsan?

Kənd Soveti katibinin dedikləri, deyəsən, Abuzər kişinin ağlına batdı. Amma yenə Xudaverdi müəllimdən soruşdu:

- Yaxşı, nə məsləhət görürsən?

Xudaverdi müəllim başa düşdü ki, Abuzər kişini niyyətindən döndərə bilib. Buna görə də tez dedi:

- Əla ad tapmışam. Sədyar olmasın, olsun Səddam. Yəqin bilirsən də, Səddam Hüseyn İraqın prezidentidir, Sovet hökumətinin də dostu. Allah eləsin, sənin oğlun da böyüyüb olsun böyük vəzifə sahibi. Bir də gördün xəbər çatıb Səddam Hüseynə ki, SSRİ-də sənin adaşın dünyaya gəlib. O da bir gün çağıracaq oğlunu yanına. Əvvəlcə Bağdadda bir saray bağışlayacaq, bir milyon dollar da qoyacaq cibinə ki, apar Abuzər kişi yaşlı vaxtında geninə-boluna xərcləsin... Adama daha nə lazımdı ki? Onda heç mən yada düşməyəcəm. Hər halda, bizim kəndin də adı məşhurlaşacaq, yuxarılarda tez-tez çəkiləcək. Bu da mənə bəsdi. İndi moddu, çoxbilmişlər uşaqlarına böyük rəhbərlərin atasının, arvadının adlarını qoyurlar. Hər halda, bir şey qazanırlar da.



Xudaverdi müəllimin dedikləri Abuzər kişiyə yaman təsir etmişdi. O, danışdıqca Abuzər kişi özünü Bağdatda hiss edirdi...

...Bir anda otaqdakı tər tökdürən isti keçib getmişdi. Gözləri önündə dənizin ləpədöyənində ağappaq bir saray canlanmışdı. Köpüklü dalğalar dənizdən əsən sərin küləyin təsirindən mərmər örtüklü sarayın ilk mərtəbəsinin pilləkənlərinə yaxın qumluqları yuyub geri çəkilirdi. Bu anlarda dalğaların qucağına alıb gətirdiyi xırda rəngbərəng balıqlar yaş qumun üzərində çırpına-çırpına yenidən özlərini dənizə tərəf atırdılar...

Abuzər kişi sahilə yaxın xurma ağaclarının altında açılmış çimərlik çarpayısında dirsəklənib, gah

uzaqdan gələn gəmiyə, gah da pəncərələrinin tül pərdələrini külək yelləyən ağ saraya doğru baxırdı.

Gəmiyə baxanda Abuzər kişiyə elə gəlirdi ki, o gəmi uzaq-uzaq yolları keçərək Xəzər dənizindən buraya gəlir. Bu ara Abuzər kişinin boğazı qurudu. əlini uzadıb çimərlik çarpayısının yanında qoyulmuş balaca stolun üstündəki sərin banan şirəsindən içmək istədi...

Xudaverdi müəllim onun ürəyindən keçənləri oxuyurmuş kimi dilləndi:

- Gözlərin yol çəkir, Abuzər kişi. Olmaya Bağdadın xurmalıqlarında gəzirsən? A kişi, mən deyənə razı ol, qurtarıb getsin. Hər şey yaxşı olacaq.

Kənd Soveti katibinin səsindən diksinən Abuzər kişi bir anda harada olduğunu dəqiqləşdirə bilmədi. Hannan-hana alnından qaşlarına doğru axan təri dəsmalı ilə silib dedi:

- Nə deyirəm ki, qoy sən deyən olsun.

Xudaverdi müəllim qarşısındakı surğuclu-qaytanlı kitaba nəsə yazıb, Abuzər kişiyə dedi:

- Bu oldu yaxşı. İki-üç gündən sonra gəl, "metirka"nı apar. O, özün dediyin qoyunu da yaddan çıxarma, maşın göndərərəm atarsan maşına.

Abuzər kişi Kənd Sovetinin binasından çıxanda, əvvəlcə bilmədi evə getsin, yoxsa kənddən bir qədər aralı, şor kanalın yanında əkdiyi bostana.

İsti qalxmışdı. Fikirləşdi ki, daha günortaya az qalıb, bundan sonra evə gedib neyləyəcək. Yaxşısı budur ki, elə bostana tərəf getsin.

Kənddən bir qədər aralanmışdı ki, "Jiquli" ilə haradansa gələn Ağəli müəllimlə rastlaşdı. Ağəli müəllim maşını saxlayıb Abuzər kişi ilə görüşdü. Sonra dedi ki, istidə piyada getmə, gəl otur maşına aparım.

Ağəli müəllim nə illah elədisə Abuzər kişi razı olmadı:

- Yox, başına dönüm. Özüm yavaş-yavaş gedəcəyəm. Siz yolunuzdan qalmayın.

Ağəli müəllim Abuzər kişinin yaxın qohumu idi. Təmiz, mehriban insan olduğu üçün həmişə deyərdi ki, bu kənddə el dərdi çəkən iki kişi varsa, biri Abuzər əmidi.

Abuzər kişi çox gec ailə qurmuşdu. Səbəbi də rəhmətlik atası ilə bağlı idi. Demişdi ki, atamdan bir soraq almayınca evlənməyəcəm. Əslində onun ailə qurması üçün nə isti ocağı var idi, nə də gəlin gətirməyə bir otağı. Atasından səs-soraq kəsiləndən iki-üç il sonra anası da dünyasını dəyişdi. Abuzər tək qaldı.

İllər ötəndən sonra kənddəki bərbər Bayrama qardaşından məktub gəldi. Bayramın müharibədə əsir düşmüş qardaşı Qərib sonralar Almaniyadan Türkiyəyə getdiyini, orada yaşadığını yazırdı. Qərib məktubunda İstanbulda Abuzərin atası Sədyar kişini gördüyünü də qeyd etmişdi. Abuzər kişi Bayramın qardaşından gələn ilk məktubu necə ağlaya-ağlaya oxuduğunu illər keçəndən sonra da unutmurdu.

Bayram qardaşına məktub yazanda Sədyar kişini tapmasını da xahiş etmişdi. Lakin, sən demə məktubları oxuyurmuş. Bir gün Bayramı rayona çağırdılar və tapşırdılar ki, məktublarında salam-kalamdan başqa heç nə yazmasın, yoxsa başı ağrıyar. Elə o vaxtdan sonra Qəribdən məktub gəlmədi.

Abuzər ata yurdunda tikdiyi birotaqlı mənzildə bir neçə il tək yaşadı. Çörəyini, suyunu özü hazırladı, paltarını özü yudu. Yaxşı həyətbaca qurdu. Ancaq gecələr Allah verəndən yeyib yatağa girəndən sonra saatlarla yuxuya gedə bilmədi. Tez-tez ömründə üzünü görmədiyi atası ilə xəyalında söhbət elədi: "Adına qurban olum ay dədə, bircə üzünü görsəydim dərdim olmazdı. Heç demirsən oğlun yurdunda tək-tənha neyniyir, necə yaşayır? Üz tutub hara gedirəm ağzım daşa dirənir... Bircə qapımızdan girsəydin..."

Abuzər yuxuya gedəndən sonra Sədyar kişi gəlib oturardu oğlunun yanında. Oğlunun saçlarını tumarlayırdı, sonra sakitcə dayanıb onun yuxulu gözlərinə, nigaran çöhrəsinə baxırdı. Ancaq oğlu ilə bircə kəlmə də kəsmirdi.

Abuzər oyanıb gördüklərinin yuxu olduğunu biləndən sonra çox kövrəlirdi, sinəsi göynəyirdi.

Fikirli görünürsən, Abuzər dayı, Nə olub?

Abuzər ürəyindəkiləri müəllimdən gizlətmək üçün:

- Elə bir şey olmayıb. Ancaq deyirlər müharibə olacaq...

- Hər söz-söhbətə inanma.

- Yaxşı, müəllim, de görüm, Bağdad şəhəri buradan çox uzaqdı?

- Mən biləni min kilometr olar. Necə bəyəm?

- Heç, elə-belə soruşuram.

Sağollaşıb ayrıldılar. Abuzər kişi gedəndən sonra müəllim onun arxasınca xeyli baxdı. Kişinin sonuncu sualı Ağəli müəllimi çox düşündürürdü. Ancaq tapdığı cavab özünü qane etmirdi.

Ağəli müəllim Abuzər kişinin qızlarına dərs demişdi. Tərbiyələrinə söz ola bilməzdi. Həm də yaxşı oxuyurdular. Böyük qızı Səidəni oğlu Nihada almaq istəyirdi. Deyəsən, Səidənin də bu işə könlü vardı.

Arvadı bu yaxınlarda Mədinə xala ilə söhbətlərdə istəklərini ona eşitdirmişdi. Mədinə xala isə qısaca belə demişdi:

- Qızım hələ oxuyacaq.

Abuzər kişi bostanın kənarında tikdiyi çardağa çatanda bərk susamışdı. Əlini uzadıb axşamdan çardağın dirəyinə keçirdiyi suqabını götürüb suyu başına çəkdi. Sonra ayaqqabılarını və pencəyini çıxarıb çardağa uzandı. İçdiyi su və Kürdü düzü tərəfdən əsən meh onun ürəyini sakitləşdirdi. Yadına Xudaverdi müəllimin dediyi sözlər düşdü:" ...Sənin atan kim olub?- Qaçaq! ura hökumətinin düşməni... Deyəcəklər ki, bu nəsildən bircə nəfər qalıb, o da elə köhnə havaynan yaşayır... Səddam yazsaq yaxşıdır, özü də Sovet hökumətinin dostudur...."

Abuzər kişi bu anda illərlə ürəyində əzizlədiyi adı təkrar pıçıldadı və hirslə öz-özünə dedi:" Deməli, mən öz atamın adını uşağıma qoya bilmərəm?! Yox, Səddam olmayacaq. Uşağın adı Sədyar yazılmalıdı!

Bir azdan Abuzər kişi dəmir çarpayıda yuxuya getdi. Yuxuda gördü ki, atası nəvəsinin əlindən tutub bostanla saralmış zəminin arasından keçən yolla ona tərəf gəlirlər...

**Səməd Məlikzadə**